DOI: https://doi.org/10.36719/2706-6185/34/64-67

**Aynurə Hümmətli**
Cəlilabad rayon Göytəpə şəhər V.Mürsəlov
adına 1 nömrəli tam orta məktəb
hummetli.a1984@gmail.com

# TƏRBİYƏ VƏ PEDOQOJİ USTALIQ

**Xülasə**

Tərbiyə və pedaqoji ustalığa dair münasibətlər qədim zamanlardan indiyədək davam edir. Hələ vaxt ilə K. D. Uşinski " İnsan tərbiyənin predmetidir" əsərində yazmışdır ki,əgər sizə deyirlərsə ki, tərbiyənin məqsədi insanı xoşbəxt etməkdir. (K.D.Uşinski "Seçilmiş pedaqoji əsərləri" Bakı.1953)

Uzun illər ərzində məqsədlər harmonik inkişaf etmiş, özündə mənəvi zənginliyi, əxlaqi təmizliyi və fiziki kamilliyi əks etdirən insan idealı mövqeyindən nəzərdən keçirilmişdir. Şübhəsiz ki, bu mövqeyə tərbiyənin ideal məqsədi kimi baxmaq lazımdır. Lakin, belə məqsədin vahid bir variant kimi seçilməsi tərbiyəvi işin praktik nəticəsinin qarşıya qoyulmuş məqsəddən əhəmiyyətli dərəcədə fərqlənməsinə gətirib çıxarır.

Tərbiyəvi tədbirləri şagirdlərin yaş səviyyəsinə, qarşıya qoyulmuş məqsədin tələblərinə uyğun seçə bilmək, tərbiyə işləri zamanı şagirdlər arasında qarşılıqlı əlaqə və münasibətləri düzgün təşkil etmək, tərbiyə nəzəriyyəsini bilmək şagirdləri müxtəlif fəaliyyət növlərinə və ictimai işlərə qatmaq bu bacarıqlara yiyələnmək bütövlükdə pedaqoji ustalığın səviyyəsini qaldırır.

***Açar sözlər:*** *tərbiyə, pedaqoji ustalıq, predmet, əxlaqi təmizlik və mənəvi zənginlik*

**Aynura Hummatli**
Jalilabad district Goytepe city
Secondary school № 1 named after V. Mursalov
hummetli.a1984@gmail.com

## Education and pedagogical skills

**Abstract**

Relationships about education and pedagogical mastery continue from ancient times to the present. At the same time, K.D. Ushinsky wrote in his work "The subject of human education" that if you are told that the purpose of education is to make people happy.

For many years, the goals have been considered from the standpoint of a harmoniously developed human ideal that reflects spiritual richness, moral purity and physical perfection. Without a doubt, this position shpuld be seen as the ideal goal of education. However, choosing such a goal as a single option leads to a significant difference in the practical result of the educational work from the set goal.

To be able to choose educational measures in accordance with the age level of students and the requirements of the set goal, to properly orqanize interaction and relations between students during education work, to know the theory of education, to involve students in various types of activities and social work, mastering these skills raises the level of pedagogical mastery as a whole.

***Keywords:*** *education, pedagogical mastery, subject, moral purity and spiritual wealth*

## Giriş

Azərbaycan Respublikası müstəqil dövlət kimi inkiş edərək milli xüsusiyyətlərini saxlamaqla dünyaya inteqrasiya edir. Tərbiyə və pedaqoji ustalıq sahəsində həyata keçirilən islahatlar imkan verir deyək ki, inkişaf etmiş ölkələrlə səsləşən işlərimizdə var. Azərbaycan Respublikasının demokratik, hüquqi, sivil bir dövlət kimi inkişafını şərtləndirən amillərdən biri də təhsil

müəssisələrində pedaqoji ustaliq və tərbiyəvi iş sisteminin düzgün qurulmasıdır. Çünki demokratik ruhlu gənclər məhz məktəbdəki düzgün təlim və tərbiyə prosesinin nəticəsində formalaşır.

Digər tərəfdən təhsil sisteminin inkişaf tendensiyası və pedaqoji ustalıq sahəsində novator müəllimlərin iş üsullarına dair toplanmış faydalı təcrübələr, pedaqoji-psixoloji tədqiqatların nəticələri daima sistemləşmə, ümumiləşmə və təlim-tərbiyə prosesinin məzmununun yeniləşməsini tələb edir. Bu problemlərin həllində tərbiyyə və pedaqoji ustalıq anlayışının gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır.

Pedaqoji prosesdə nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman çərçivəsində proqnozlaşdırılmış tərbiyə və pedaqoji ustalıq prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir.

Tərbiyə bəşər yaranandan mövcud olmuş, tarix boyu inkişaf edərək bu günümüzə qədər gəlib çıxmışdır.

Şəxsiyyətin təşəkkül tapıb formalaşmasında digər amillərlə yanaşı tərbiyə prosesinin müstəsna dərəcədə böyük rolu vardır. Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.) əleyhissəlam buyururdu ki, "Tərbiyə valideynin öz övladına verdiyi ən böyük hədiyyədir" (Abbasov, Əlizadə, 2000: 77).

Hər bir şəxs – istər yaşlı, istərsə də cavan, yaxud uşaq olsun –daim tərbiyəyə möhtacdır. İngilis filosofu Con Lokk "tərbiyə hər şeyə qadirdir"-deyir və göstərirdi ki, insanlar arasında fərqləri də tərbiyəyaradır (Kazımov, 1996: 65).

İnsanların bir-biriylə ünsiyyəti, qarşılıqlı münasibətləri, yaşayış uğrunda mübarizəsi prosesində birgə fəaliyyət göstərməyin zəruriliyi tərbiyənin yaranmasına səbəb olmuşdur.

Mürəkkəb proses olan təybiyə insanın hətta doğulmamışdan ana bətnindən başlayaraq formalaşmasında mühüm rol oynayır. İnsan doğulandan onu son mənzilə qədər müşayiət edən tərbiyə prosesi məzmun və xüsusiyyətlərinə görə rəngarəng olduğu kimi, üsullarına görədə müxtəlifdir. Bu mənada tərbiyə insanı ömrü boyu müşayiət edir.

Hər ölkənin özünəməxsus tərbiyəvi üsulları, müxtəlif əməli fəaliyyətləri və hər xalqın öz adət-ənənəsinə uyğun tərbiyə forması vardır. Bizim xalqımıza xas olan təybiyə üsulları zəngindir və bütün mərhələlərdə bu üsullardan istifadə etməklə cəmiyyətimiz üçün layiqli vətəndaşlar tərbiyə edə bilərik. Ü.Hacıbəyov demişdir: "Tərbiyənin məqsədi elmi, saf əxlaqlı, xalqın mənafeyini öz şəxsi mənzfeyindən üstün tutan, öz əməyi və fəaliyyəti ilə vətəninə xidmət etməyi özünə borc bilən, mübariz və sədaqətli şəxslər yetişdirmək (Orucova, 2006: 76).

Tərbiyə prosesinin mürəkkəb çətinliyi hamıya məlumdur, lakin onun uğurlu həllini tapmaq, bu çoxsahəli və təzadlı fəaliyyətin əsl ustası olmaq hamıya nəsib olmur. Buna yalnız bütün varlığı ilə bağlı olan masum uşaqları, özünün tədris etdiyi fənni və həmin fənni tədris etməyi sevən insanlar nail ola bilirlər. Aqillərin dediyi kimi, təlim-tərbiyə prosesi ilk baxışda son dərəcə asan, aydın görünür, hamıya tanış gəlir. Adam onunla nəzəri və əməli cəhətdən az tanış olduqca, bir o qədər aydın, asan və sadə görünür.

Əsl həqiqətdə isə bu işi bacaran müəllimlər məktəbdə yüksək nüfuz sahibinə çevrilirlər. Fikrimizcə müəllim nüfuzunun yaranması və formalaşmasına bir sıra amillər təsir göstərir.

1. Müəllim nüfuzu üçün zəruri sayılan təhsillilik və öz fənnini gözəl bilmək, yüksək pedaqoji ustalığa yiyələnmək həssas şagird diqqətindən əsla yayınmır. Müəllimin işindəki müsbət və mənfi cəhətlər haqqında şagirdlərdə aydın, həm də silinməz təsəvvür yaranır. Təlim –tərbiyə işlərinin müvəffəqiyyəti də məhz bu münasibətlərəsasında formalaşıb inkişaf edir.

2. Pedaqoji nüfuzun yaranmasına təsir edən amillərdən biridə məktəbdə səmimi və işgüzar mühitin olmasıdır. Pedaqoji ustalıq müəllimin nüfuzunu yüksəltdiyi kimi, təlim-tərbiyə işlərinin keyfiyyətinə də müsbət təsir göstərir.

3. Pedaqoji ustalıq həm də təlim prosesinindüzgün təşkilində özünü biruzə verir. Daha doğrusu, təlim zamanı fəallaşdırma probleminin həlli pedaqoji ustalığın mühüm komponentinə çevrilir. Belə ki, usta müəllim təlim prosesinin bütün həlqələrində, şagirdlərin nəzəri və praktik fəaliyyətində onların fəallıq və müstəqilliyini təmin edən təkmilləşdirilmiş üsulların və təlimin təşkili formalarının tətbiqinə nail olur.

Pedaqoji prosesin fəallaşdırılması ideyası fikrimizcə ilk təlim-tərbiyə işlərinin məqsədyönlü, planauyğun şəkildə həyata keçirildiyi zamanlardan qabaqcıl müəllimlərin pedaqoji ustalığı kimi meydana gəlmişdir. Qədim Çin filosofu, dövlət xadimi və pedaqoqu Konfusi (551-479) təlim prosesinin fəallığı təlimdən təfəkkürün vahidliyində və qırılmaz əlaqəsində görürdü. Konfutsiyə görə öyrənmək və fikirləşmək –bu bihudə məşğələdir. Yaxud fikirləşmək, lakin öyrənməmək-bu zəruridir. Təlimin keyfiyyəti bütövlüklə müəllimdən asılıdır (Əliyev, 1993: 100).

İnsanlığın ağıllı və şüurlu fəaliyyəti sahəsinə aid olan tərbiyə işi tarixi proses olduğundan cəmiyyətin inkişaf ahənginə uyğun olaraq daimi dəyişir, təkmilləşir və inkişaf edir. Bütün canlılara xas olan yeni mühitə instintik uyğunlaşmadan fərqli olaraq insanların yeni sosial, iqtisadi, ictimai, tarixi şəraitə uyğunlaşması tərbiyə işinin şüurlu, məqsəd yönlü xarakterə malik olması ilə bağlıdır.

Tərbiyə və pedaqoji ustalığa yiyələnməyin yolları və vəsaitləri haqqında da xalq pedaqogikasında da fikirlər çoxdur. Onlarla tanışlıq göstərir ki, zəhmət adamları əqli tərbiyə işində daha çox məhz nağıl və izah etmək, müsahibə aparmaq, əyani göstərmək üsullarından, eləcə də tapmacalardan, dastan, atalar sözü, mahnı və s. vasitələrdən bol-bol istifadə etmişlər. Burada həm də ailə tərbiyəsi məsələləri, uşağın yaş dövrləri, təlim-tərbiyəni hansı yaşdan başlamağın məqsədəuyğunluğu haqqında da çox qiymətli fikirlərə rast gəlinir (Əhmədov, 2001: 46).

Müəllim-şagird münasibəti bir növ pedaqoji ustalığın keyfiyyət meyyarı göstəricisi hesab olunur. Ona görə də ustad müəllimlər, çoxsahəli, geniş mənalı, perspektivli, tale yüklü pedaqoji fəaliyyətlərinə vurğunluqla yanaşır, ustalığın daima təkmilləşdirir.

Müasir dövrdə tərbiyənin və pedaqoji ustalığın real məqsədi- şagirdin fərdi qabiliyyəti və istedadı əsasında hərtərəfli inkişaf etdirməsidir. Respublikamız irəliyə doğru inkişaf etdikcə, əlverişli şərait yarandıqca tərbiyənin real məqsədindən perspektiv ideal məqsədinə keçid tam gerçəkliyə çevriləcəkdir. Hazırda məktəblər şəbəkəsinin genişləndirilməsi, xüsusi istedadı olan uşaqların aşkara çıxarılması və onların qabiliyyətlərinin hərtərəfli inkişafı üçün münasib şəraitin yaradılması kimi bir çox tədbirlər bu həqiqəti bir daha təsdiq edir (Uşinski, 1953).

Tərbiyə və pedaqoji ustalığın əsas məqsəd dövlət təhsil standartlarına uyğun biliyə, bacarığa, praktik hazırlığa, mütərəqqi dünyagörüşünə malik olan, xalqının milli, mənəvi, mədəni dəyərlərinə və bəşəri dəyərlərə dərindən yiyələnən, Azərbaycan xalqının azadlıq amalına və demokratiya ənənələrinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvər, müstəqil və yaradıcı düşünən şəxsiyyət tərbiyyə etməkdən ibarətdir.

Pedaqoji ustalıq səviyyəsinə yüksəlmiş müəllim bilir ki, düzgün münasibətdə her şeyin zərgər dəqiqliyi ilə ölçülməsi, "qızıl orta xətt" prinsipinə üstünlük verilməlidir. Dahi N.Gəncəvinin dediyi kimi" Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da" (Gəncəvi, 1981: 110).

Pedaqoji ustalığın formalaşması müəllimin əxlaqi səviyyəsi, bu sahədə onun əldə etdiyi təcrübədən çox asılıdır. Məktəb illərində bu prosesə təkcə müəllimlər rəhbərlik etmir, ona valideynlər və uşaq kollektivləri də istinad edir. Bununla belə uşaqların formalaşmasına təsir göstərən sistemlər o qədər müxtəlifdir ki, müəllim gərək şagirdlərin şüuruna müsbət təsir edən hərəkətləri möhkəmlətməyə çalışsın. Müsbət keyfiyyətlərinin adətə çevrilməsinə nail olsun.

Təcrübə zamanı müəllim şüurlu surətdə elə situasiya yaratmalıdır ki, şagird həmin tələb olunan tərzdə davranmağa , hərəkət etməyə məcbur olsun. Məhz burada pedaqoji ustalıq müəllimin əxlaq-etik hərəkəti ilə qarşılıqlı surətdə bir-birini tamamlayır. Pedaqoji ustalığı ilə fərqlənən müəllim bu situasiyani o dərəcədə məharətlə həyati təsvir edir ki, uşaq yalnız arzu olunan əxlaqi təcrübəni düzgün yerinə yetirir (Pedaqogika, 1993: 218).

## Nəticə

Pedaqoji ustalığın təkmilləşdirməyi qarşısına məqsəd qoyan gənc müəllim öz peşəsinin psixoloji, social, fəlsəfi, əxlaqi əlamətlərinə xüsusi diqqət yetirməlidir.

O, məktəbə yenicə qədəm qoymuş 6-7 yaşlı körpələri bəzən yerli, bəzən yersiz ola biləcək suallarınz cavab verməyi özü üçün artıq yük saymamalı, onlara səbrlə, təmkinlə, qayğıkeşliklə, inandırıcı cavab verməyə çalışmalıdır. Şagirdlərin müraciətinə cavab verməyib biganəlik göstərdikdə müəllim-şagird münasibəti pozulur və uşaqlarla tərbiyəçi arasında soyuqluğun, yadlığın

yaranmasına səbəb olur. Belə uşaqları yavaş-yavaş məktəbin mədəni-kütləvi tədbirlərində yüngül işləri görməyə cəlb etmək lazımdır. İşin nəticəsi çox uğurlu olur. Şagird təlimdə də xeyli irəliləyir.

Pedaqoji ustalığı ilə şagirdlərin qəlbinə, ağlına hakim olmuş müəllimlər şagirdlərin idealına çevrililərlər. Məhz ona görə də digər uğurlar da, özlərini şam kimi əridib onların həyat yoluna nur saçmış xeyirxah müəllimlərin də payı olduğu böyük səmimiyyətlə etiraf edirlər.

**Ədəbiyyat**

1. Abbasov, A., Əlizadə, H. (2000). Pedaqogika. Bakı.
2. Kazımov, (1996). Pedaqogika. Bakı.
3. Orucova, S. (2006). Ü.Hacıbəyovun pedaqoji görüşləri. Bakı.
4. Əliyev, H. (1998). Pedaqoji ustalığın əsasları. Bakı.
5. Əhmədov, H. (2001). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı.
6. Uşinski, K.D. (1953). Seçilmiş pedaqoji əsərlər. Bakı.
7. Gəncəvi, N. (1981). Sirlər xəzinəsi. Bakı.
8. Pedaqogika. (1993). Bakı. Maarif.

Göndərilib: 08.01.2024 Qəbul edilib: 01.04.2024